

# Şəxsiyyət ucalığı

Sevindirici haldır ki, bu gün dünyada multikulturalizmdən, tolerantlıqdan söz düşəndə nümunə olaraq Azərbaycanın təcrübəsi göstərilir. Son illərdə Bakının mədəniyyətlərarası, dinlərarası dialoq mərkəzinə çevrilməsi, bu məsələlər üzrə mötəbər beynəlxalq tədbirlərin hər il məhz Azərbaycanda keçirilməsi bunun əyani təsdiqidir. Çoxillik dövlətçilik tarixinə malik nəhəng dövlətlər belə ölkəmizin bu sahədə təcrübəsini öyrənməyə çalışırlar.

Şübhəsiz, bütün bu nailiyyətlər ölkəmizdə bərqərar olmuş siyasi sabitlik, əmin-amanlıq, davamlı və dayanıqlı iqtisadi inkişafla bilavasitə üzvi surətdə bağlıdır. Bunun da əsası xalqımızın böyük oğlu, dahi siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən qoyulmuşdur.

1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycana rəhbərlik məsuliyyətini öz üzərinə götürən ümummilli lider ölkənin düşdüyü çətin vəziyyətdən xilas yollarını müəyyən edərkən ilk növbədə siyasi sabitliyin təmin edilməsini, iqtisadi inkişafa nail olunmanı əsas hədəf seçdi. Çünki dövlətin qüdrəti ilk növbədə məhz bu amillərlə ölçülür və bunlarsız digər sahələrin inkişafı qeyri-mümkündür.

Ümummilli liderin titanik fəaliyyəti, həyata keçirdiyi böyük işlər sayəsində Azərbaycan qısa müddətdə xaosdan, hərc-mərclikdən, qarşıdurmalardan xilas olaraq geniş tərəqqi yoluna qədəm qoya bildi, dövlətçilik möhkəmləndi. Bu da öz növbəsində bütün sahələrin inkişafına əlverişli zəmin yaratdı.

Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev müstəqilliyin bərpasından sonrakı ilk illəri belə səciyyələndirmişdir: "O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın lideri Heydər Əliyev olmuşdur. Onun zəhmətidir, onun əməyidir və xalqla birlikdə bu gün biz Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk".

Bu gün hər bir Azərbaycan vətəndaşı dərin iftixar hissi ilə təsdiq edir ki, müasir Azərbaycan dövləti ümummilli liderin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir. Çünki Azərbaycanı inkişaf etdirən, ona beynəlxalq aləmdə nüfuz qazandıran Heydər Əliyev siyasəti uğurlu sabahımızın da təminatçısıdır. Ölkə məhz onun müəyyən etdiyi siyasi kursla irəliyə doğru davamlı və uğurlu addımlar atır.

Ötən dövrə nəzər salsaq, aydın görərik ki, ulu öndər bütün sahələrlə yanaşı, Azərbaycanın tanıdılması, xalqın keçmişinə, milli adət-ənənələrinə dövlət səviyyəsində qayğı göstərilməsi, multikultural dəyərlərin qorunması məsələlərinə də son dərəcədə həssaslıqla yanaşırdı. Bu, ümummilli liderin həyatının əsas məqsədlərindən biri idi.

Ulu öndər əsrlər boyu formalaşmış Azərbaycan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirdi və onu keyfiyyətcə yeni siyasi müstəviyə keçirdi.

Ta qədimdən zaman-zaman formalaşan, tarixin süzgəcindən keçərək saflaşan, milli genimizə hopan, əcdadlarımızdan bu günümüzədək gəlib indiki nəslə çatan multikultural dəyərlər xalqımızın milli sərvətidir. Tarixin ağrı-acısına, sınaqlarına mərdliklə sinə gərmiş xalqımız, şükürlər olsun ki, öz dilini, milli dəyərlərini, adət-ənənələrini qoruyub saxlaya bilmişdir.

Ümummilli lider tolerantlığın, birgəyaşayış mədəniyyətinin Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu göstərərək, Azərbaycanı milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətəni adlandıraraq deyirdi: "Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan Respublikasının ən böyük sərvəti, bəlkə də ən birinci sərvəti burada uzun əsrlər bir yerdə yaşamış, dostlaşmış, qardaşlaşmış müxtəlif xalqların birliyidir".

Multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edən Heydər Əliyev Azərbaycanda yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik mədəni və fərqli dini inanclara aid dəyərlərin qorunmasını da daim diqqət mərkəzində saxlayırdı.

Ümummilli lider hələ 1993-cü ildə özünün ölkə Prezidenti kimi andiçmə mərasimində söylədiyi proqram nitqində deyirdi: "Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi vardır və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır".

Əsası ulu öndər tərəfindən qoyulmuş tolerantlıq siyasəti nəticəsində bu gün:

- *xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını gerçəkləşdirməyə nail olub;*
- *tolerantlıq və multikulturalizm ənənələri siyasi və hüquqi müstəvidə bərpa olunub, dayanıqlı, müstəqil, tolerant Azərbaycan dövləti qurulub;*
- *dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları ölkəmizdə mövcud olan söz, vicdan və dini etiqad azadlığından, dövlət-din münasibətlərindən lazımınca yararlanırlar;*
- *Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Müstəqillik dövründə 2 minə yaxın məscid və digər dinlərin məbədləri tikilmişdir. Pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri həyata keçirilmişdir. 2014-cü ildə ölkəmizdə Qafqazın ən böyük məscidi - Heydər məscidi inşa edilmişdir;*
- *ölkəmizdə yaşayan bütün millətlərin, etnik azlıqların dininə, dilinə, mədəniyyətinə bərabər səviyyədə hörmət-ehtiramla yanaşılır, adət-ənənələrin, el şənlikləri və mərasimlərin həyata keçirilməsinə lazımi şərait yaradılır, hətta bir çox bayramlar birlikdə, hamılıqla qeyd edilir;*
- *Ermənistanın hərbi təcavüzü nəticəsində öz yurdlarından didərgin düşmüş, respublikanın bütün şəhər və rayonlarında müvəqqəti məskunlaşmış, etnik və dini mənsubiyyəti müxtəlif olan soydaşlarımızla yerli əhali, o cümlədən müxtəlif etnik qruplar arasında ötən müddət ərzində heç bir xoşagəlməz hal baş verməyib;*
- *ötən illərdə çoxsaylı beynəlxalq humanitar təşkilatların xətti ilə ölkəmizdə fəaliyyət göstərən və tez-tez regionlara səfər edən xarici ölkələrin vətəndaşları ilə həm yerli, həm də qaçqın və məcburi köçkünlər arasında ünsiyyətdə heç bir narazılıq, dözümsüzlük halları baş verməyib.*

Əlbəttə, bütün bu məsələlərin kökündə həm xalqımızın çoxəsrlik tolerantlıq ənənəsi, tarix boyu bir coğrafi məkanda sülh şəraitində birgə yaşamış bütün millətlərin, etnik azlıqların bir-birinin milli-mənəvi dəyərlərinə hörmətlə yanaşılması, həm də ulu öndərin tolerantlıq siyasəti dayanır.

Ulu öndərin mənalı ömür yolu Vətənə, xalqa sədaqət nümunəsidir. Məhz buna görə də bütün Azərbaycan xalqı, o cümlədən Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin düşmüş, fəqrli dini və etnik mənsubiyyəti olan bir milyondan çox soydaşımız da ümummilli liderə, onun siyasi kursuna inanır, dövlət və dövlətçiliyimizə sədaqət nümayiş etdirirlər.

Onlar bilirdilər və əmin idilər ki, Heydər Əliyev onların problemləri ilə daim məşğul olur. Ulu öndərlə çadır düşərgələrində, digər sıx müvəqqəti məskunlaşma yerlərində qaçqın və məcburi köçkünlərlə dəfələrlə keçirilən görüşlər, problemlə bağlı təşkil olunan tədbirlər bu əminliyi daha da artırırdı.

Bu, bir həqiqətdir ki, qaçqın və məcburi köçkünə çevrilən insanların üzləşdiyi problemlərin həlli istiqamətində atılan ilk addımlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin, Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Məhz həmin dövrdə:

- *1993-cü ildə BMT Təhlükəsizlik Şurasının münaqişənin siyasi həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı beynəlxalq hüquq normalarına uyğun 4 qətnaməsi qəbul edildi;*
- *1994-cü ildə atəşkəsə nail olundu;*
- *ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində tədbirlər görüldü, ABŞ Konqresinin müstəqil Azərbaycana yardım göstərilməsini qadağan edən Azadlığa Dəstək Aktına ədalətsiz 907-ci düzəlişin icrası dayandırıldı;*
- *münaqişə ilə əlaqədar olaraq ATƏT-in rəhbərliyi, Minsk qrupunun təmsilçiləri ilə 200-dən artıq, 80 ölkənin dövlət başçıları ilə 500-dən çox görüş keçirildi;*
- *"Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı" təsdiq edildi;*
- *əsası Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası öz bəhrəsini verməyə başlayan andan, 2001-2002-ci illərdə Dövlət Neft Fondundan ilk ayrılmış vəsait hesabına çox qısa bir müddətdə Biləsuvar rayonu ərazisində 5 çadır düşərgəsi ləğv edildi.*

Bu gün ulu öndərin Azərbaycanın bütün sahələrdə hərtərəfli inkişaf etdirilməsi, o cümlədən humanist, tolerant siyasəti Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Bu da nəticə etibarilə respublikamızda dayanıqlı, davamlı iqtisadi tərəqqinin, sabitliyin qorunub saxlanılmasına, həmçinin multikultural mühitin möhkəmlənməsinə, tolerantlıq ənənələrinin güclənməsinə öz həlledici töhfələrini verməkdədir.

Dünyəvi təcrübəyə malik cənab Prezidentin rəhbərliyi ilə son 12 ildə aşağıdakı uğurlar əldə edilmişdir:

- *düşünülmüş, balanslaşdırılmış xarici siyasət, ölkə daxilində sabitlik təmin edilmişdir;*
- *Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə:*
- *BMT, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq nüfuzlu təşkilatların Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının dəstəklənməsinə nail olunmuşdur;*
- *Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün beynəlxalq aləmdə ifşa edilməsi və müvafiq hüquqi-siyasi qiymətləndirilməsinə nail olmaq istiqamətində həm ikitərəfli əsasda, həm də BMT, ATƏT, NATO, Avropa İttifaqı, Avropa Şurası və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində aparılan işlər davam etdirilmişdir;*
- *Azərbaycanda və xarici ölkələrdə müntəzəm olaraq beynəlxalq tədbirlərin təşkili, həmçinin hazırlanmış kitab, buklet, qısametrajlı filmlərin səfirlik, konsulluq, diplomatik nümayəndəlik və diaspor təşkilatlarının vasitəsilə digər ölkələrdə yayılması təmin edilmişdir;*
- *Azərbaycan bu gün yüksək iqtisadi inkişafa malik olan ölkələr sırasına daxil olmaqla, regionun lider dövlətinə çevrilmişdir;*
- *təşkil olunan mədəniyyət tədbirləri, dialoqlar, İ Avropa Oyunları Azərbaycanda yüksək səviyyədə keçirilmişdir;*
- *dünyanı iqtisadi, maliyyə böhranı bürüdüyü bir vaxtda - 2015-ci ildə də Azərbaycanda bütün istiqamətlər üzrə uğurlu inkişaf dinamikasının saxlanılması, ümumi daxili məhsulun 1,1 faiz, qeyri-neft sənayesinin 8,4 faiz, kənd təsərrüfatının 6,6 faiz artması, bütün sosial proqramların icrası təmin edildi;*
- *sahibkarlığın inkişafı məqsədilə güzəştli şərtlərlə 1,7 milyard manatlıq kreditlərin verilməsi, Azərbaycana 200 milyard manat sərmayənin qoyulması, 1 milyon 500 min yeni iş yerinin yaradılması həyata keçirildi;*
- *qaçqın və məcburi köçkünlərlə bağlı bir dövlət proqramı və ona iki əlavə hazırlanaraq qəbul edildi;*
- *12 çadır düşərgəsinin ləğvi 2007-ci ildə başa çatdırıldı. Qaçqın və məcburi köçkünlər üçün ümumilikdə indiyədək 2,9 milyon kvadratmetr yaşayış sahəsi olan 94 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınmış, 49 min ailə və ya 243 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı. Ondan da 45 min ailə, yaxud 225 min nəfərin mənzil-məişət şəraiti yaxşılaşdırılması (92 %) son 12 ilin payına düşdü;*
- *qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 22 ildə 2,5 milyard manat dövlət büdcəsinin, 1,9 milyard manat Dövlət Neft Fondunun,1 milyard manat isə beynəlxalq maliyyə qurumları və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaiti olmaqla, 5,4 milyard manat vəsait sərf edilmişdir. O cümlədən, 4,6 milyard manat (85%) vəsait son 12 ildə istifadə olunmuşdur;*
- *məcburi köçkünlər arasında yoxsulluq həddi son 12 ildə 75 faizdən 12 faizədək azalmışdır.*

Bu gün böyük iftixar hissi ilə qeyd edirik ki, bəzilərinin paxıllıqla, qısqanclıqla yanaşdıqları dövlətçiliyin Azərbaycan modeli təcrübəsini dünyanın bir çox ölkəsi öyrənir, ondan bəhrələnməyə çalışırlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanda multikultural münasibətlərin inkişafı yönündə atdığı addımlar bu münasibətlərə aid dəyərlərin təbliği və təşviqi istiqamətində də davamlı xarakter daşıyır. Hələ 2014-cü ilin oktyabrında Bakıda keçirilən IV Beynəlxalq Humanitar Forumda çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yaranmış şəraiti qiymətləndirərək qeyd edirdi ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Multikulturalizmin əksi isə faşizmdir, antisemitizmdir, şovinizmdir, terrordur, müharibədir. Multikulturalizm isə yüksək insani hissləri özündə birləşdirən mədəni müxtəliflik, qarşılıqlı hörmət və səmimiyyətdir.

Bakıda keçirilən sivilizasiyalar və mədəniyyətlərarası dialoqlarla bağlı silsilə tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz əksər nüfuzlu beynəlxalq və regional təşkilatlarda təmsil olunur, beynəlxalq humanitar forumlara, BMT-nin Sivilizasiyalar Alyansına, Mədəniyyətlərarası Dialoq Forumuna, UNESCO-nun və ISESCO-nun mötəbər tədbirlərinə evsahibliyi edir. Eyni zamanda, dünya dinləri nümayəndələrinin təmsil olunduğu ali məclislər - MDB müsəlmanları Məşvərət Şurasının, Qafqaz xalqları Ali Dini Şurasının iclasları, dünya dini liderlərinin beynəlxalq sammiti Bakıda keçirilir.

Ulu öndərin dövlət-din münasibətləri sahəsində siyasətinin uğurla həyata keçirilməsinin davamı olaraq Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir.

Təəssüflər olsun ki, bu gün dünyada belə bir səhv fikir səsləndirilir ki, mültikulturalizmin gələcəyi yoxdur. Dünyanın demək olar ki, bütün regionlarında baş verən ixtilafların, müharibələrin əsas səbəblərindən biri kimi fərqli din və mədəniyyətlərə dözümsüz münasibətin olması göstərilir ki, bu da bəşəriyyəti fəlakətlərə sürükləyir.

Həqiqət isə başqadır. Bəşəriyyətin bu günü, mövcud münaqişələrdən çıxma yolu və gələcəyi məhz dinc birgəyaşayış, dözümlülük prinsipləri ilə, qarşılıqlı hörmətlə, bir sözlə, tolerantlıq və multikulturalizmlə bağlıdır.

Bunun da ən yaxşı nümunəsi tərəqqiyə və barışa töhfə verən Azərbaycandır. Ölkəmiz Yaxın Şərqdə münaqişə ocaqlarında humanitar fəlakətlərdən baş götürüb gələn 1.500 nəfərə yaxın (əvvəlki illərdə onların sayı 11.000 nəfər olmuşdur) qaçqına xoş münasibət də nümunəvidir. Ermənistanla münaqişə şəraitində olmasına baxmayaraq, ölkəmizdə xeyli sayda erməni mənşəli vətəndaşlar da multikultural situasiyanın bərabərhüquqlu iştirakçıları kimi dövlət qayğısından kifayət qədər faydalanırlar.

Multikulturalizm sahəsində aparılan işləri yüksək dəyərləndirən və ümumilikdə Azərbaycanın gələcək inkişafının konturlarını uzaqgörənliyi ilə dəqiqliklə müəyyən edən ölkə Prezidenti cənab İlham Əliyev 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması ilə bağlı qərar qəbul etmişdir.

Qəbul olunmuş qərarda və bununla bağlı imzalanan sərəncamda da qeyd olunduğu kimi, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır.

Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Elə bu baxımdan cənab Prezident tərəfindən Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Cənab Prezidentin vurğuladığı kimi, "Bakıda ənənəvi humanitar forumlar keçirilir. Mədəniyyətlərarası dialoq forumları bir neçə dəfə keçirilmişdir. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da, həm bizə verilən böyük qiymətdir, həm də bizim üçün böyük şərəfdir".

Göründüyü kimi, multikulturalizm və tolerantlıq milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzidir. Ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan multikulturalizminin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar dövlət qurumları, siyasətçilər, hökumət adamları ilə yanaşı, hər bir vətəndaşın da üzərinə şərəfli vəzifə qoyur.

Heydər Əliyev Fondu yarandığı vaxtdan Azərbaycan həqiqətlərini, Ermənistanın ölkəmizə qarşı təcavüzünü, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmağa xüsusi önəm verir.

Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm, texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondu tərəfindən ingilis, rus, fransız, alman, macar və başqa dillərdə nəfis şəkildə tərtib edilmiş və yüksək poliqrafik səviyyədə çap olunmuş kitablar, bukletlər, fotoalbomlar və digər materiallar müntəzəm olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

Bu istiqamətdə görülən məqsədyönlü iş 2005-ci ildə fondun yaratdığı və geniş məlumat bazasına malik "Azərbaycan" portalının internet şəbəkəsinə qoşulması ilə başlanmışdır. Portalda Qarabağ müharibəsi, Ermənistanın Azərbaycana təcavüzü, işğal olunmuş ərazilərdə yerli əhaliyə qarşı törədilən azğınlıq, tarixi-memarlıq abidələrimizin vəhşicəsinə dağıdılması barədə faktlar öz əksini tapmışdır.

"Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası beynəlxalq humanitar hərəkatların avanqardı kimi, müasir dünyada ədalət və həqiqətin dayağı olmaq missiyasını həyata keçirənlər sırasında layiqli yer tutur. 2008-ci il mayın 8-də Şuşanın işğalının ildönümü günü Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlayan "Xocalıya ədalət!" kampaniyası hazırda 80-dən artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla həyata keçirilir.

"Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının ardıcıl və məqsədyönlü tədbirlər silsiləsi göstərir ki, kampaniya dövlət siyasətinin böyük əhəmiyyət kəsb edən strateji mərhələlərindən biri kimi Xocalı soyqırımına, Qarabağ həqiqətlərinə dünya ictimaiyyəti tərəfindən hüquqi, siyasi və mənəvi qiymətin verilməsi, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində uğurla davam etdirilən alternativ siyasətdir. Soyqırımının tanıdılması prosesinin sürətlənməsi, bu kampaniyaya getdikcə daha çox insanın qoşulması, "Xocalıya ədalət"in fəaliyyətinin səmərəli nəticələri kampaniyanın genişlənərək xalqın və dövlətin maraqlarını müdafiə edən, ümumən dünyada soyqırımına, terrora və işğala qarşı təbliğat aparan, humanist, xalq diplomatiyası olduğunu deməyə əsas verir.

Azərbaycanın müasir tolerantlıq siyasəti yalnız ölkə hüdudları ilə məhdudlaşmır. Multikulturalizm kimi bəşəri dəyərlərə Azərbaycanın münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə də özünü göstərir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və əzmkar fəaliyyəti sayəsində ölkəmiz Şərqlə Qərb arasında körpü rolu oynayır.

Heydər Əliyev Fondunun Şərqdə, habelə Avropa ölkələrində dini abidələrin bərpa və təmir olunması sahəsində gördüyü işlər buna bariz nümunədir. Bu xeyriyyə işləri Azərbaycan xalqı və hökumətinin dünya mədəni irsinə, dini dəyərlərə verdiyi töhfədir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2015-ci ilin sentyabrında Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda keçirilən konfransda çıxışı zamanı Azərbaycanın birinci xanımı Mehriban Əliyeva haqlı olaraq demişdir: "Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın".

Bütün qeyd olunanlar bir daha təsdiq edir ki, Azərbaycan müxtəlif xalqların və etnik qrupların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü bir məkandır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı il fevralın 17-də Gəncədə "İmamzadə" dini kompleksində keçirilmiş tədbirdə demişdir: "Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük sərvətimizdir."

Bü gün siyasi, iqtisadi, maliyyə böhranında çalxalanan, millətlər, dinlər arasında kəskin ixtilafların baş alıb getdiyi dünyada balansı saxlamaq, sülhü, ictimai-siyasi sabitliyi qorumaq və bütün bunlarla bərabər, həm də ölkənin dayanıqlı inkişafına nail olmaq heç də asan məsələ deyil.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz belə bir tarixi missiyanı yerinə yetirir. Milli inkişaf modelinin uğurlu tətbiqi, multikultural dəyərlərin qorunub saxlanılması və inkişafı indiki şəraitdə sosial-siyasi, iqtisadi islahatların ardıcıl şəkildə həyata keçirilməsini, bir sözlə, Azərbaycanın dinamik inkişafını müvəffəqiyyətlə təmin edir.

Azərbaycanda yaşayan bütün millətlərin, etnik qrupların ayrı-ayrılıqda multikultural dəyərləri ümumilikdə hamımızın - bizim milli dəyərimiz, milli sərvətimizdir. Onu qoruyub saxlamaq və gələcək nəsillərin həyat tərzinə çevirmək isə bugünkü nəslin, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

İndiki və gələcək nəsillərimiz unutmamalıdırlar ki, əldə edilən və ediləcək bütün uğurların əsasında ulu öndər Heydər Əliyevin milli dövlətçilik, azərbaycançılıq, milli-mənəvi dəyərlərin, milli adətənənələrin qorunub saxlanılması, etiqad, inanc azadlığı fəlsəfəsi, miltikulturalizm siyasəti durur.

**Əli HƏSƏNOV,**
***Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, YAP sədrinin müavini***